# Sankt-Moritz dağ-xizəkçilik kurortu

İsveçrə. Ölkənin kurortları arasında turistlər arasında daha məhşur və populyar olan kurortlar Verbye, Sermatt, Krans-Montana, Villar, Qrindelvald, Davos, Saas-Fe, Sankt-Moritz və s.-dir.Ölkənin ən tanınmış dağ-xizəkçilik kurortu – Sermatt cənubda, Matterxorn (4477 m) dağının yamaclarında yerləşməklə, dünyanın ən yaxşı 10 dağ- xizəkçilik kurortu siyahısına daxildir. Sermatt kurortunda 116 mehmanxana və 1200 apartament vardır ki, eyni vaxtda 12,5 min nəfəri qəbul edib xidmət göstərmək qabiliyyətinə malikdir. Burada yamacların ümumi uzunluğu 400 km və maksimum sürüşmə hündürlüyü 3883 m-dir.

Möhtəşəm gölləri, Alp dağlarının füsunkar mənzərəsi və chalet-ləri ilə qış aylarında eynilə yeni il açıqcalarından çıxmış kimi görünən nağılabənzər İsveçrə ən fotogenik ölkələrdən biridir. Sürix, ortasından keçən və Zürichsee Gölünə tökülən Limmat Çayı ilə olduqca xoş mənzərələr sizi gözləyir. Çayın iki qolu kiçik körpülərlə birləşir. Alp dağlarına doğru uzansanız St. Moritz-ə üstünlük verməlisiniz. Bu ovsunlu qəsəbə valehedici bir gölün kənarında yerləşir. Dünyanın ən populyar və ən tarixi xizək mərkəzlərindən biri olan St. Moritz-in mərkəzi də sevimli dükkanları, lyuks butikləri və sofistik restoranları ilə diqqəti dərhal çəkir.

Xüsusən yeni il bayramlarında və Milad zamanı işıqlandırılan və sehrli bir atmosferə sahib olan bu bölgəyə 3 fərqli yolla çatmaq mümkündür. Əgər dumana görə bağlı deyilsə, təyyarə, ya da qatar səfəri ilə bu mərkəzə çatmaq mümkündür. Sözügedən mərkəz dünya milyonerlərinin də əsas ziyarət yerlərindən biridir. Professional xizəkçilərin olduqca çətin məkanlarda, şərtlərdə öz ustalıqlarını nümayiş etdirdikləri St. Moritz möhtəşəm bir meşə mənzərəsinə sahibdir. Həm otellər, həm də əyləncə məkanları baxımdan olduqca populyardır. Donmuş göl üzərində gerçəkləşən at yarışları uzun illərdən bəri baş tutmaqdadır. Bəhs tutanlar və ya it yarışlarını izləməyi tərcih edənlərə son dərəcədə sıx-sıx rast gəlmək mümkündür.